Nə Respublika Talış Mədəniyyəti Mərkəzinin, nə də qəzetin ofisləri yoxdur!

De Xıdo nomi!

# TOLIŞON SƏDO

№ 10 (22) 24 mart 2012-nə sor MÜSTƏQİL QƏZET QİYMƏTİ 40 qəp.

Qəzet həftədə bir dəfə, şənbə günü çıxır

# Tı Tolış boştə inə zıvoni jiyero çiçı kardə?

## NOVRUZƏLİ MƏMMƏDOVUN ANADAN OLMASININ 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLMİŞDİR




"Talış.org" saytı xəbər verir ki, 22 mart tarixində dahi talış maarifçisi, talış xalqının dil və mədəniyyət hüquqları uğrunda böyük mübariz, "Tolışi Sədo" qəzetinin baş redaktoru və Talış Mədəniyyəti Mərkəzinin sədri, Talış dilinin təbliğinə görə həbs edilmiş və uzun müddətə azadlıqdan məhrum edilərək, Bakı türməsində şəhid olmuş proffessor Novruzəli Məmmədovun 70 illik yubileyi doğma Ərçivan (Arçon) kəndində qeyd edilmişdir.

Yubiley tədbirinə ədəbiyyat və mədəniyyət xadimləri, ictimai simalar, Talış ictimaiyyətinin ziyalıları, hüquq müdafiəçiləri, alimin yaxın dostları və jurnalistlər qatılmışlar.

Tədbirdə Novruzəli Məmmədovun həyatı, elmi və ictimai fəaliyyəti haqqında məruzə və çıxışlar dinlənilmişdir. Natiqlər Novruzəli müəllimin yenilməz vətəndaşlıq mövqeyindən söhbət açmış, onun milli ideallar və talış xalqının hüquqları uğrunda mübarizədə dönməzliyini, Vətənə hədsiz məhəbbətini xüsusi vurğulamışlar.

Talışın görkəmli simaları Xanəli Tolış, Allahverdi Bayrami, Hilal Məmmədov, Sabir Şindani, Huseynqulu Məmmədli, Camal Lələzoə, Sərxan Əşrəfi, Barat Qasımov, Mətləb Dadaşov, Nəriman Ağazadə, Nəriman Azəri və başqaları Novruzəli Məmmədov haqqında xatirələrini danışmış, onun fəaliyyətinin müxtəlif cəhətlərinə toxunmuşlar.

Tədbirdə həmçinin yubileyə qatılmaq imkanı olmayan talış hərəkatının fəallarının teleqramları oxunmuşdur.

Yubiley mərasimindən sonra iştirakçılar böyük maarifçi şəhid Novruzəli Məmmədovun və övladlarının məzarlarını ziyarət etmiş, ruhlarına dualar oxumuşlar. Ustadın məzarı önündə nitqlər edilmiş və hökümətin etnosid siyatəti pislənmişdir.





TALIŞLAR... səh 2.
ƏBÜLFƏZ RƏCƏBLİ



İQTİDARIN "MİTİNQLƏRİ"... səh 3.
Rafiq Cəlilov



LERİKDƏ NOVRUZ səh 4.
Nəriman AĞAZADƏ



TOJƏ ŞEİRON səh 5.
XANƏLİ TOLIŞ



SİYO ÇOXO səh 6.
Allahverdi Bayrami



Mir Əsgar Xan Talışinski səh 7.
Razzaq Xansuvarov Talışxanov

Tolışon Sədo




Filologiya elmləri doktoru, professor Əbülfəz Rəcəbli

"Talış dilinin fonetikası" Bakı, "Nurlan" 2009 səh.17-39

# Talışlar

*(əvvəli ötən sayımızda)*

Ərəb tarixi qaynaqlarının verdiyi məlumata görə, talışların ulu babaları elə talış adı ilə IX-XII əsrlərdə müasir Azərbaycan ərazisində, indi yaşadıqları yerlərdə yaşamışlar. B.V.Miller talış dilinin qədim azəri dilinin törəməsi haqqında fərziyyə irəli sürmüş (Б.В.Миллер. Талышский язык, Москва, 1953, səh. 254-263), V.B.Henninq həmin fərziyəni müdafiə etmişdir (W.B.Henning. The ancietic language of Azerbaijan - Transaction of Philological Society, London, 1955, p.176). Azəri dilinin XIV əsrə aid olan nümünələrini İran alimi Əhməd Kəsrəvi 1946-cı ildə Tehranda nəşr etdirmişdir (Ahmad Kesravi. Azəri ya zabane bastane Azarbaijan, Tehran,1946).

Mən ümumiyyətlə müəyyən bir xalqın müəyyən bir yerdə əzəli olması, yəni xalqın elə orada "doğulması", indi yaşadığı ərazidə yaranması, necə deyərlər, toxum kimi həmin torpaqda cücərməsi, təşəkkül tapması, orada formalaşması və təşəkkül tapdığı zamandan orada yaşaması fikrinin əleyhinəyəm. Mən bu fikirdəyəm ki, bəşəriyyət yaranandan bütün qəbilələr və xalqlar bu və ya digər şəkildə bir yerdən başqa yerə miqrasiya etmiş, başqa torpaqlarda məskunlaşmış, yerli sakinləri (aborigenləri) ya qırmış, qovmuş, onların ərazisində yerləşmiş, ya da həmin torpağın avtoxton əhalisi ilə qaynayıb-qarışmış, ya mənşəcə ona qalib gəlmiş, ya da onun içində əriyib, itmişdir. Artıq sübut edilmişdir ki, Amerikanın hindu qəbilələri o yerlərə Asiyadan köçmüşlər. Tarix buna da şahidlik edir ki, məsələn, ingilislər, almanlar, fransızlar, macarlar, finlər, şərqi slavyanlar (rus, Ukrayna, beloruslar), türklər, ermənilər, farslar və başqaları indi yaşadıqları yerə sonradan gəlmişlər. mən "kadusilər talışların indi yaşadıqları torpaqların əzəli sakinləridir" deyəndə talışların indiki Talış zonasında torpaqdan cücərdiyini nəzərdə tutmuram. Güman ki, talışlar da bu yerlərə gəlmişlər. Hər halda tarixə bizim eradan əvvəl və 1500-cü illərdə özünü arilər adlandıran hind-Avropa dilli İran qəbilələrinin indiki İran ərazisinə gəlmələri haqqında məlumata rast gəlmək olur: onlar İran ərazisinə şimaldan gəlmişdilər (Современный Иран, Москва, 1975, səh.110). Lakin, nə vaxt? Tarix bu suala cavab verə bilmir, tarix kadusilərin indiki Talış zonasına nə vaxt miqrasiya etdiklərinə şahidlik etmir. Mən "kadusilər talışların indi yaşadıqları torpaqların əzəli sakinləridir" deyəndə bunu nəzərdə tuturam. Buna görə də bu və ya digər xalqın bu və ya digər ərazidə yaşamasının qədimliyindən danışarkən yalnız və yalnız həmin xalqın bu yerlərə miqrasiyasının qədimliyindən, miqrasiya prosesinin qədimliyindən söhbət gedə bilər. Mən talışların bu yerlərin əzəli sakinləri olmasını deyərkən məhz bunu nəzərdə tuturam və tarixin əlçatmaz, ünyetməz dərinliklərində Talış torpağında başqa xalqın yaxud xalqların yaşamadığını iddia etmək fikrindən uzağam.

Talışların Qafqazın avtoxton əhalisi olması haqqında bir mənbədən oxuyuruq: "Bu gün kimsə şübhə etmir ki, əvvələn, talışlar Qafqazın qədim avtoxton əhalisinin nəsilləridir, güman ki, midiyalıların mədəniyyətinin varisləridir, çünki vaxtilə talış diyarı Azərbaycanın başqa əraziləri ilə birlikdə qədim midiya dövlətinə daxil idi; ikincisi, bir neçə əsr ərzində talışlar fəal surətdə Azərbaycan mədəniyyətinə qoşulmuşdur. İrandilli talış əhalisinin türkləşdirilməsi prosesi əvvəllər də, hələ VI-VII yüzilliklərdə, türkdilli qəbilələrin şimaldan irəliləmələri zamanı baş vermiş və XI-XII yüzilliklərdə, xüsusən XIII yüzillikdə güclənmişdi. XVII yüzilliyin sonunda Talış xanlığının əsası qoyulur. Xanlıq 1812-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olur. Bu hadisə əvvəlcə Gülüstan (1813-cü il), sonra isə qəti surətdə Türkmənçay (1828-ci il) müqavilələri ilə möhkəmləndirilir" ("Союз" qəzeti).

Talış torpağı bir tərəfdən dəniz (Xəzər dənizi), o biri tərəfdən sıx meşəli dağlar (Talış dağları), şimaldan və cənubdan bataqlıq və cəngəlliklərlə əhatə olunduğu üçün yad qəbilələrin basqınına az məruz qalmışdır. Talış torpaqlarına yadellilərin az-az hücum etməsini mən bir də onların ən qədimdən indiyədək sülhsevər bir xalq olması ilə də izah edərdim. Tarix yalnız bir dəfə yad qəbilələrin talış ərazisinə həmləsinə şahidlik edir: XIII əsrdə Hülakülər Azərbaycanı işğal edərkən (tarix kitablarında İranı işğal edərkən yazılır, çünki o vaxt Azərbaycan dövləti yox idi və Talış İran dövlətinə daxil idi) bir neçə monqol ulusu Talışda məskunlaşmışdı. Tarixçilər Lənkaran rayonundakı Xarxatan (talışca Xaxarton) kəndinin mənşəyini monqollarla əlaqələndirirlər (müəllifin hansı mənbələrə əsaslandığını deyə bilmərəm, ancaq "Əxbərnamə"də də bu kəndlə bağlı məlumatlar var. Mənim bildiyimə görə isə, bu kənddə ağır seyidlər yaşayır. Seyidlər isə bildiyimiz kimi daha çox ərəb nəsilləridir. Xarxatan kəndinin relyefi də, bunu deməyə əsas verir ki, təqib olunan İmam övladları məhz bu ərazidə məskunlaşa bilərdilər. Tarixdən də məlum olduğu kimi, xilafətdə olan Əməvilərin, ondan sonra isə Abbasilərin uzun sürən təqiblərindən qaçan İmamlar və onların yaxın qohumları İran və Azərbaycan ərazisinə qaçmış və daha çox əlçatmaz yerlərdə məskunlaşmışdılar. Amma, hal-hazırda bu kənddə talış dilində danışmayan tapmaq çətindir. Hətta qonşu kəndlərlə müqayisədə, bu kənddə evdə də uşaqlarla talış dilində danışılır. (R.H.)); indi bu kəndin əhalisi talış dilində danışır. İranın və Azərbaycanın bütün ərazisini işğal edən və Azərbaycan ərazisindən Dağıstana hücum edən ərəblər də, dəfələrlə İrana və Şərqi Avropaya, habelə Bizansa hücum edən Orta Asiya ordaları da Talışdan yan keçmişdir. Beləliklə, talışlar uzun müddət tarixin keşməkeşində özlərinin etnoqrafik özünəməxsusluqlarını qoruyub saxlaya bilmiş, Orta Asiyada və Azərbaycanda (eləcə də dünyanın çox yerində) əsrlər, minillər boyu qanqarışması prosesindən kənarda olmuşlar. Yalnız səlcuq türklərinin XII yüzillikdə İranı və Azərbaycanı işğal etməsinin talışlara təsiri olmuşdur. Məhz bu dövrdə talışlar indi Lənkəran-Astara (əslində talış olmalıdır) ovalığı adlandırılan düzənin meşəsiz hissəsindən sıxışdırılmışdır: bu yerlərdə türklər məskunlaşmışdır.

Talışların ən çiçəkləndiyi dövr Azərbaycanda Səfəvilər sülaləsinin hakimiyyəti illərinə (XV yüzilliyin sonundan XVIII yüzilliyin iyirminci illərinədək) düşür. Məlum olduğu kimi, Azərbaycan tarixində görkəmli rol oynamış qüdrətli Azərbaycan hökmdarı Şah İsmayıl Xətai Fatehin ulu babası, Səfəvilər xanədanının əsasını qoyan Şeyx Səfiəddin İshaqın (1252-1334) gəncliyi Talış torpağında keçmişdir. Şeyx Səfiəddin öz müəllimi Şeyx İbrahim Zahidin qızına evlənmiş və özünün yazdığı kimi desək, Şeyx Zahidin çovkan topu olmuşdur (yəni Şeyx Zahid öz ideyalarını təbliğ etmək, yaymaq üçün hər yerə onu göndərmişdir). Şeyx Səfiəddin bu torpağa bağlılığını, məhəbbətini öz nəslinə də aşılamışdır. Şeyx Səfiəddinin müəllimi Şeyx İbrahim Zahidin türbəsi indi də Lənkəran şəhərindən bir neçə kilometr cənubda yerləşən Şıxəkəran (talışca: Şıxəkon - Şeyx evləri) kəndindədir.

---




***Oxucuların çoxsaylı xahişini nəşərə alıb "Əxbərnamə" əsərini hissə-hissə öz qəzetimizdə vermək qərarına gəldik. "Əxbərnamənin" elektron variantını bizə təqdim etdiyi üçün "Talış.org" saytına minnətdarıq.***

*BAKI - 2009*

***Çapa hazırlayan:***
*İshaq Axundov*
***Redaktor:***
*Seyidağa Onullahi.*
***Fars dilindən tərcümə edən:***
*Əli Hüseynzadə*

MİRZƏ ƏHMƏD MİRZƏ XUDAVERDİ OĞLU

# ƏXBARNAMƏ

## (Talış Xanlığının tarixindən)

Azərbaycanın XVIII əsrin sonu-XIX əsrin əvvəllərinin sosial-iqtisadi və siyasi tarixinin hələ çox qaranlıq məqamları var. Həmin dövrdə İran və Rusiya Qafqazın, o cümlədən Azərbaycanın üzərində hökmranlıq uğrunda qanlı muharibələr aparırdılar. Azərbaycan bu muharibələrdə gah İran, gah da Rusiyaya meyl göstərməklə öz nisbi müstəqilliyini qorumağa can atan ayrı- ayrı xanlıqlar şəklində iştirak edirdi. Belə xanlıqlardan biri də Talış xanlığı olmuşdur. Oxuculara təqdim edilən "Əxbarnamə" əsəri həmin dövr Talış xanlığında cərəyan etmiş hadisələrinin bir çoxunda bilavasitə iştirak etmiş Mirzə Əhməd Mirzə Xudaverdi oğlu tərəfindən qələmə alınmışdır. Müəllif şəxsən şahidi olduğu, yaxud bilavasitə onlarda iştirak etmiş şəxslərdən eşitdiyi hadisələri çox canlı təsvir etmiş, hadisələrdə iştirak edən insanların və hadisələr cərəyan edən ərazilərin külli miqdarda toponimlərinin adını əsərdə göstərmişdir.

Əsər Azərbaycan tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün maraqlı olmaqla yanaşı Azərbaycanın tarixini və toponimiyasını tədqiq edən mütəxəsislər üçün də zəngin mənbədir.

### GİRİŞ

**Əxbarnamə və onun müəllifi**

Azərbaycanın ən səfalı guşələrindən olan Lənkəran - Astara bölgəsi barədə orta əsrlər dövründə xüsusi tarixi əsərlərin yazılmasına təsadüf etmirik. Bu mahal haqqında az-çox məlumatlara müxtəlif qaynaqlarda, o cümlədən Avropa səyyahlarının əsərlərində rast gəlirik. Həmin əsərlərdə Iran, Azərbaycan və Şirvan tarixi ilə əlaqədar Lənkəran-Astara bölgəsindən də bəzi adlar çəkilmiş, burada baş vermiş hadisələrə toxunmuşlar.

Maraqlıdır ki, XIX əsrin ikinci yarısında bilavasitə Lənkəran-Astara bölgəsi tarixinə aid iki əsər yazılmışdır. Onlardan biri Səidəli Kazım bəy oğlu Lənkəraninin 1869-cu ildə fars dilində yazdığı "Cəvahirnamə-yi Lənkəran" əsəridir. Bölgənin ictimai-iqtisadi tarixindən bəhs edən bu əsər hələlik çap edilməmişdir. Ikinci əsər isə Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun 1882-1883-cü illərdə yazmış olduğu "Əxbarnamə" əsəridir. Kitabda Lənkəran-Astara bölgəsinin ictimai-siyasi, iqtisadi və mədəni həyatı, eləcə də adətənənələri barədə məlumat verilməklə yanaşı bir çox mahal və kənd adları çəkilir ki, onların əksəriyyətinin adları indi dəyişdirilmiş, yaxud təhrif edilmişdir. "Əxbərnamə" əsərinin əksər hissəsi müəllifin atasından eşitdikləri və bir qismi isə özünün başına gələn əhvalat və müşahidələri əsasında yazılmışdır.

*(ardı səh.3-də)*

# İQTİDARIN "MİTİNQLƏRİ"...



Rafiq Cəlilov
celilovrafiq@mail.ru

*Bu yazımı USTADIN 70 illik yubiley tədbirinə həsr etmək istəyirdim. Çox təəsüf ki, mən həmin tədbirdə iştirak edə bilmədim. Bunun birinci səbəbi mənim maşınsız olmağım idisə, ikinci və ən əsas səbəbi yubiley tədbirinin keçirilmə vaxtının mənə dəqiq deyilməməsi oldu. Nə isə, görünür təşkilatçılar məni o tədbirdə görmək istəməyiblər, baxmayaraq ki, digər qəzetlərin jurnalistlərini şəxsən dəvət etmişdilər...*

**Sumqayıtın paxlavası...**

Mən həmişə "Xural" qəzetində Sumqayıtdakı məmur özbaşınalıqlarından yazırdım. Bu məmurlar, başda başçı Vaqif Əliyev olmaqla mənə qarşı böyük bir plan hazırlasalar da, yaxşı münasibətdə olduğum, respublikanın aparıcı qəzetlərindən birinin baş redaktoru məni gözlənilən təhlükədən xəbərdar etdi. Həmişə belə olub, məni daima son anda xəbərdar edən tapılıb. İşim bunda yox, sadəcə olaraq istəyirəm yenidən Sumqayıt mövzusuna toxunam. Bütün respublikada olduğu kimi, Sumqayıtda da "geniş quruculuq-abadlıq işləri" aparılır və çox maraqlıdır ki, bu "quruculuq-abadlıq işlərini" Gəncədən "transfer" edilmiş Eldar Əzizov aparır. Bu həmən Eldar Əzizovdur ki, onun Gəncədə apardığı və milyonlarla pul xərclədiyi "quruculuq-abadlıq işlərini" Yevlaxdan Gəncəyə "transfer" edilmiş Elmar Vəliyev dibindən sökərək, təzədən aparır. Bir neçə milyon "cartes", getdi "sələfüyə", yəqin ki, Elmar Vəliyevin də Yevlaxda apardığı "quruculuq-abadlıq işlərini" onu əvəz edən başçı "yerlə yeksan edib". Sözüm bunda yox, amma bir şeyi anlamaq iqtidarında deyiləm, necə ola bilir ki, Gəncədə bir neçə milyon manatın "şotuna" aparılan "yarıtmaz quruculuq-abadlıq işlərinin" müəllifi indi həmən işləri Sumqayıtda aparır? İndi məni başa salın görüm, necə ola bilir ki, Gəncəni "yarıtmayan" Eldar Əzizov Sumqayıta transfer oldu? Yox, əgər o Gəncəni "yarıtmışdısa", onda niyə Elmar Vəliyev Gəncəni təzədən "söküb-yığır"? Axı buna milyonlarla pul xərclənib, indi sabah Eldar Əzizovu burdan başqa rayona aparsalar, onun yerinə də Elmar Vəliyevi gətirsələr, yenə də "sök-ha-sök" başlayacaq? İndi bu iki başçıdan soruşan varmı ki, a kişilər, hansınız düz işləməmisiz? Əgər Eldar Əzizov Gəncədəki "quruculuq-abadlıq işlərini" düzgün aparmayıb, milyonları pulu kül kimi göyə üfürmüşdüsə, bəs onda niyə onu "dövlət əmlakını talamaq" maddəsi ilə həbs etməyib, Sumqayıtın "quruculuq-abadlıq işlərini" ona tapşırdılar? Yox, əgər Eldar Əzizov Gəncəni "düzgün qurub-abadlaşdırmışdısa", onda niyə Elmar Vəliyevi "biləRəkdən dövlət büdcəsinə küllü miqdarda ziyan vurma" maddəsi ilə həbs etmirlər? Bax, bu niyələr məni dəli edəcək, ya mən bu "niyə"lərə cavab tapmalıyam, ya da... Nə isə, indi hörmətli kulinar, üzr istəyirəm, başçı Eldar Əzizov Sumqayıtda nəhəng bir paxlava bişirtdirib, Novruz bayramında verib kasıb-kusubun ixtiyarına. Eldar Əzizov çox gözəl bilirdi ki, əksər Sumqayıtlılar evlərində paxlava bişirə bilməyiblər, buna görə də o böyük bir paxlava bişirtdirib, yetim Sumqayıtlılara yedizdirdi. Vallah bu Sumqayıtlılar yaxşılıq bilən deyillər, kişi hər bayramda bunlara şirniyyat yedizdirir ki, ağızları şirin olsun, başçı haqqında şirin danışsınlar, bu Sumqayıtlılar kişinin çörəyini yeyib, dalıyca danışırlar. Sən demə başçı Sülh prospektinə təzə döşənmiş bardurları ona görə söküb, yenisi ilə əvəzləyib ki, bu yeni bardurları onun daş sexi istehsal edir, bu boyda yalan olar? Nə olsun ki, o bardurlar təzə idi, heç qırxı çıxmamışdı, bu əsas verirmi ki, kişi haqqında şaiyə yayasız? Amma öz aramızdır, indiki bardurlar daha da təzədir, pisdir ki? Eldar müəllim Sumqayıta təzə quraşdırılmış işıq dirəklərini söküb, onları lap təzə dirəklərlə əvəz etdi ki, şəhər bir az da işıqlı olsun, qədirbilməz sumqayıtlılar başladılar ki, bəs başçı prezidentin ayırdığı bu milyonlarla, əksəriyyəti evsiz olan Sumqayıtlılara bir neçə bina tikə bilməzdimi? A kişi, tikmək olsaydı, tikərdi də, yəni Eldar Əzizov sizin qədər bilmir? Gedin işinizlə məşğul olun da...

**Bakının AVROviziYASI...**

AVROviziyaya çox az qalıb, işlər sürətlə gedir, billur sarayın da hazır olmasına bir şey qalnayıb, (qulaqlara qurğuşun, deyirlər ki, guya bu billur sarayla yanaşı bəzi oliqarxlar "dövlətin şotuna" özləri üçün otellər də tikirlər) amma.. Bir tərəfdən bəzi əhali, xüsusən özlərini "müsəlman" sayanlar "biz AVROviziyaya yox deyirik!" şüarı ilə başımızı xarab edirlər, bir yandan da qurban olduğum Xıdo bunlara tez-tez sərtləşən havasatı ilə başa salır ki, etməyin, bu "üzdəniraqları" Azərbaycana yığmayın, Sizi cəzalandıraram. Amma bu oliqarxiyanın gözünü şeytan icadı olan AVRO elə tutub ki, onlar bütün bunları görmürlər, üstəlik bu üzdəniraqlar üçün indidən hazırlıqlar da "YAPırlar", martın 17-də gözlənilmədən Hacıbələ müxalifətə mitinq keçirtmək şansı tanıdı, hətta AzTV həmən mitinqdən reportaj da hazırladı. Əli Həsənov biraz da irəli gedib, əhalinin "sərbəst toplaşmaq" hüququnun olduğunu "gözümüzə soxdu", bu Əli Həsənovdan soruşan olmadı ki, a kişi, bəs bu yetim müxalifət uzun illərdir mitinq sevdasındadır, niyə icazə vermirdiz? Deyirdiz ki, "Sərbəst toplaşmaq azadlığı digər əhalinin hüquqlarının pozulması hesabına ola bilməz", indi nə oldu ki, birdən-birə "digər əhalinin hüquqlarını pozub, müxalifətə də sərbəst toplaşmaq hüququ tanıdız?" Bax pişiyin quyruğu burda görsənir. Məlum olur ki, bunlar AVROviziyada udanda öhdəlik götürüblər ki, üzdəniraqların paradını Bakıda təşkil edəcəklər, amma sonra fikirləşiblər ki, əhali onları qınayar, hər necə olmasa neçə illərdir 3-4 nəfər bir yerə toplaşıb, bir şüar da deyə bilmirlər. Burda "sərbəst toplaşmaq azadlığı" iqtidarın köməyinə gəldi, sonra baxıb gördülər ki, uzun illərdir bu "azadlıq" bizdə yazaq edilib, pərdəni götürmək lazımdır. Pərdəni götürmək üçün müxalifətin "üzdəniraqların paradınacan" bir-iki mitinq etməyi lazım idi. Müxalifət isə tərpənmək bilmirdi, müxalifətdəki "YAPonlar" işə keçdilər, təklif verdilər ki, mitinq edək, Hacıbələdan yer istəyək. Müxalifət liderlərinin cavabını gözləməmiş sosial şəbəkədə "17 mart-nicat günü" adlı təbliğat da apardılar. Gözünə döndüyüm Hacıbələ da bunu gözləmirdi? Dərhal yer ayırdı, mitinq oldu, növbəti mitinq üçün də şərait yaradıldı, beləcə AVROviziyadan əvvəlki "parad" üçün zəmin hazırlandı, indi mən deyən də ki, müxalifət iqtidarın çaldığı havaya oynayır, məni top atəşinə tuturlar, məni YAPokalipsis gəmisinin matrosu kimi qələmə verirlər, eybi yox, mayacan dözərəm, görüm AVROviziyadan sonra mitinq etməyə duxunuz çatacaq? Helə həmin Hacıbələ sizə "otkaz" edəcək, bu gün sizinlə "həmfikir olub, sizin toplaşmaq hüququnuzu tanıyan" (əslində sizi özlərinə həmfikir edən) Əli Həsənov elə həmin AzTV-dən sizi biabır edib deyəcək ki, "bekar adamlardılar, camaatı narahat edirlər", onda sizdən soruşaram: "Həzarat, mitinq nə oldu? Niyə mitinq çağırmırsız?"

---

*(əvvəli səh. 2-də)*

MİRZƏ ƏHMƏD MİRZƏ XUDAVERDİ OĞLU

# ƏXBARNAMƏ

**(Talış Xanlığının tarixindən)**

Mirzə Əhməd Mirzə Xudaverdi oğlunun əcdadı Qarabağda yaşayan Zərgərli tayfasına mənsub olmuşdur. Müəllifin babası Kərbəlayi Qurban Nadir şahın hakimiyyəti dövründə Qarabağdan Talış mahalının Qızılabad kəndinə köçüb gəlmiş, burada ev saldırmış, bir neçə il həmin yerdə yaşamışdır. Babası Kərbəlayi Qurbanın iki qardaşı da olmuşdur. Baxşıbəy Zuvand məntəqəsinin Limar kəndində, digər qardaşı isə Muğanın Ərkivan (hazırda Masallı rayonunda yerləşir) kəndində sakin olmuşdur. Kərbəlayi Qurban bir müddət Qızılabadda yaşayıb Lisan tayfasından qız aldıqdan sonra Ağa Məhəmməd şah Qacar Mir Mustafa Xan üzərinə hücum etdiyi zaman məcburiyyət qarşısında qalaraq Astaranın Kurab mahalının Butəsər kəndinə (İndi Pensar adlanır) köçüb, məşhur Ağa Kərim məhəlləsində sakin olmuşdur. Pensər kəndi Kərbəlayi Qurban, oğlu Mirzə Xudaverdi və əsərin müəllifi Mirzə Əhmədin daimi sakin olduğu yerə çevrilmişdir. Bu zaman Mirzə Əhmədin atası Mirzə Xudaverdi Rəşt mahalının Kəskər kəndinə gedib, 4 il mədrəsədə təhsil alır. Təhsil aldığı vaxt həm də müəllimlik edir. Sonra Butəsərə, yəni evlərinə qayıdır. Üç aydan sonra təhsilin davam etdirmək üçün İsfahana gedir. Orada 7 il təhsil alır. Böyük şöhrət qazanır. Lənkəran hakimi Mir Mustafa Xanın (1787-1814) dəvətilə bir müddət onun divanında katib (mirzə) işləyir. Sonralar Mir Mustafa Xanın baş vəziri vəzifəsinə təyin edilir. Ümumiyyətlə, Mirzə Xudaverdi 30 il Mir Mustafa Xana, onun oğlanları Mir Həsən Xana 20 il, Mir Abbasa isə 15 il qulluq etmişdir. Onun Mirzə Əhməddən başqa İbrahim və Molla Cəfərqulu adlı iki oğlu da olmuşdur.

"Əxbərnamə"nin müəllifi Mirzə Əhməd isə 1786-cı ildə anadan olmuş, 1883-cü ildə 97 yaşında ikən eynəksiz həmin əsəri tamamlamışdır.

Mirzə Əhmədi uşaq ikən yay fəslində atası onu təhsil almaq üçün Rəştə göndərir. Qardaşı Molla Cəfərqulu həmin zaman Rəştdə yaşayırdı. Ənzəliyə çatacaq göz xəstəliyinə tutulduğundan Pensərə, öz evlərinə qayıdır. Gözü sağaldıqdan sonra Mirzə Əhməd yenidən Rəştə gəlir və orada məşhur xəttat Məsihidən gözəl yazmağı öyrənir.

Onu qəbul edərkən Məsihi ona bir sətir xət yazdırıb "Bu mənim birinci xəlifəmdir" deyir. Tələbələr arasında da Mirzə Əhmədə "Birinci xəlifə" deyirdilər. Mirzə Əhməd iki ay Hacı Məhəmmədin mədrəsəsində təhsil aldıqdan sonra atası Pensərə qayıtmaq istəyir. Oğlunu da özü ilə aparmaq istədikdə müəllim Mirzə Xudaverdiyə deyir: "Qoy, mənim yanımda qalsın. Əgər bir il mənim yanımda məşq etsə, bir ildən sonra Iranda buna bənzər gözəl yazı yazan olmaz"1 (səh. 69b). Nəhayət, Mirzə Əhməd atası ilə birlikdə Pensərə qayıdır. Bir müddət Iran Astarasına köçüb orada üç il qalırlar. Mirzə Xudaverdi, oğlu Mirzə Əhmədi Ərdəbilə aparıb, Molla Ibrahim mədrəsəsinə qoyur. Orada səyaq elmini öyrənmək üçün şah dəftərxanasında da təhsil alır. Gündüzlər şah dəftərxanasında, gecələr isə yatmaq üçün mədrəsəyə qayıdırdı. Onunla birlikdə təhsil alan Butasərli Molla Musa ilə bir hicridə olurdu. Divandan Mirzə Əhmədə ildə 20 tümən pul və 3 xarvar buğda məvacib təyin edilmişdi. Üç il bu qayda ilə Ərdəbildə keçib.

Mirzə Əhməd artıq gözəl xəttat idi. Mir Abbas bəy Sefiddəştə hakim təyin edildikdən sonra Mirzə Xudaverdini yanına dəvət edib deyir: "Siz Butəsərə gəlib öz pulunuz ilə alınmış mülkünüzdə yerləşib, bizim mirzəlik işlərini də aparın. Keçmişdə sizin əlinizdə olan əkin yerlərini də sizə bağışlayacağam. Mirzə Əhmədin Butəsərdəki bütün qohumları bu təklifi bəyənir. Nəhayət, onlar yenə Astaranın Butəsər kəndinə, öz evlərinə köçürlər. O vaxt Irandan Rusiya torpağı hesab olunan Rus Astarasına gəlmək o qədər də asan iş deyildi. Burada təbəəlik məsələsi də var idi.

*(davamı var)*



Nəriman AĞAZADƏ,
*etnoqraf.*
***(əvvəli ötən sayımızda)***

# LERİKDƏ NOVRUZ

**Bu yazının yazılmasını keçən il, Lerik Rayon İH, dövlət qəzetlərinin birinin sifarişi ilə istəmişdi. Yazını yazıb təhvil verdim. "Görünməyən Əl" onun dərc olunmasına mane oldu.**

Son dövrlər bəzən icra ediləsi mərasimlər qarışdırılsa da, əvvəllər son çərşənbə axşamı evdən çıxmaq, qonaq getmək, qulaq falına çıxmaq və ya digər falaçmalarla məşğul olmaq məqbul sayılmazdı və edilməzdi. Bunlar yalnız Novruz bayrami axşamı və Novruz günü edilərdi. Təkcə, imkanlı şəxslər imkansız qohum-qonşuya çərşənbələrini ruzili keçirsinlər deyə ərzaq yardımı edərdilər. O da, çox vaxt elə edilərdi ki, pay alan yardım edənin kimliyini bilməsin. Yeni yaranmış bir adəti təqdir etmək olar. Belə ki, son illər yaxınlı-uzaqlı qohumlar, qonşular həmin axşam biri-birilərinə zəng edib, "çərşənbələşirlər". Çərşənbə günü, səhər sübhdən analar-bacılar, gəlinlər-qızlar durub çeşmə başına gedər, qablarını "yeni" su ilə doldurarlar. Çeşmə arxını, (çayın) üstündən hoppanarlar "dərd- bəlanı, ağrını-acını" suya verib, özlərindən "kənar edirlər". Çeşmənin, (bulağın, çayın) içindən kiçik daşlar götürür, onları və çeşmədən (bulaqdan) götürdükləri suyu evə gətirib suyu evin hər tərəfinə, yatmışlara çiləyirlər. Kiçik daşları ərzaq qablarının içinə qoyurlar. İnanırlar ki, bugünkü su dünənki sudan deyil, məhz yeni yaranmış sudur. Onun təmizlik, şəfa verici qüvvəsi daha çoxdur. Daşların isə bərəkətverici qüvvəsi vardır.

Çərşənbə günündə hamı çimməlidir. Bu vacib sayılır. Deyilir ki, hər kəsin bədənində, yeri heç kimə məlum olmayan bir tük vardır ki, o mütləq son çərşənbə günü islanmalıdır. Əlbəttə, məlumdur, ona görə belə deyilir ki, heç kim çimməyə tənbəllik etməsin və ya təkcə başını yumaqla kifayətlənməsin. Çərşənbə günü kişilər, oğlanlar saçlarını tamam qırxdırmalı və ya azaltmalıdırlar.

Çərşənbə günündən başlayaraq Novruz gününədək kim kimi görürsə, kim kimə rast gəlirsə, bir-birini çərşənbə bayramı münasibəti ilə təbrik edir. Oğlanlar, kişilər məhəllələrdə, küçələrdə, bazar-dükanda, meydanlarda yumurta çaqqışdırır. Şərtə görə, tərəflər razılaşsa, yumurtanın möhkəmliyinin, dişə vurmaqla "dadına baxmaq" da olar.

Bundan sonra Novruz axşamı və Novruz bayramı üçün hazırlıq işləri aparlır.

Novruz bayramının başlanmasını bilicilər, nücum elmindən başı çıxan adamlar olanda, onlar durbinlə göyə baxır, Günəşin zodiak bürcünə daxil olmasını, bununla da gecənin gündüzlə bərabərləşməsini və yeni ilin başlamasını, onun nə üstündə (hansı heyvan üstündə təhvil olunmasını) elan edərdilər. Bölgədə münəccim olmayanda, bu işin icrası din xadimlərinin, mollaların öhdəsinə düşürdü.

Gunəş ilinə görə yeni ilin başlanğıcı fərvərdin ayının 1-i, miladi təqvimi ilə əsasən, martın 21-nə, bəzən də 22-nə düşür.

Novruz bayramı mərasimləri köhnə ilin son axşamında başlanır. Axşam yeməyinə son çərşənbədə hazırlanan yeməklər təkrarən hazırlanir, şamlar yandırılır, üzərlik tüstülədilir. Bəzi ailələrdə səməni halvası bişirilir. Bayram axşamı həyətdə tonqal qalamaq, qonqa (məşəl) atmaq olmaz. Niyyəti olan şəxslər bir boyanmamış yumurta, bir qırmızı və bir qara karandaş götürüb, təndirin gilfəsinə qoyurlar. Ertəsi gün yumurtanı nəzərdən keçirirlər. Əgər yumurta qara karandaşla cızıqlanıbsa, niyyət bəd, qırmızı ilə cızıqlanıbsa, xoşluğa, uğura yozulur. Bu "yumurta falı" adlanır. "Yumurta falı" ilə çox vaxt ərgən qızlar məşğul olurlar. Onlar adətən, yeni ildə nişanlanacağı, ər evinə gedib-getməyəcəyi barədə niyyətlər edirlər.

Yemək süfrəsindən sonra, cavan oğlan və qızlar, uşaqlar evdən çıxıb qurşaqatdıya gedirlər. Keçmiş dövrlərdə belə bağlanan qurşağı açıb, üstü yastı damlı evlərin bacalarından bayrampayı üçün sallayardılar. Bu səhnəni şairimiz M. Şəhriyar öz "Heydərbabaya salam" əsərində gözəl təsvir etmişdir. Son 80-100 ildə qurşaqlar əvvəl dəsmalla, sonra isə papaqla əvəz edilmişdir. Bayrampayı bayram xonçasında olan müxtəlif şirniyyatdan, kökələrdən, talışların bişirdiyi "əyirdək" adlanan, bamiyəyə oxşar kökə, meyvə, qovurğa və s. olardı. Oğlanlar, onların payına yumurta düşəndə xüsusiylə sevinərdilər. Keçmişdə qurşağa kiçik həcmli geyimlər-toxunma yun corab, əlcəklər və s. də qoyulardı.

Novruz axşamı qadınlar-qızlar qulaq falına çıxardılar. Qulaq falına çıxan şəxs hansı evi nəzərdə tutubsa, o evin qapısına yaxınlaşıb, içəridən eşidəcək ilk cümlə və ya sözlərə əsasən, əvvəlcədən tutduğu niyyətin uğurlu və ya uğursuz olacağını yozurdu. Ona görə də evlərdə xəbərdarlıq olurdu ki, səmimi, yaxşı fikirlərlə danışsınlar, qulaq falına çıxan ola bilər, qoy xoş söz eşitsin.

Novruz günündə qohumlar, qonşular bir-birinin evinə gedər, xəstələrə, kimsəsizlərə baş çəkər, hal-əhval tutar, bir-birilərinə yeni ildə daha xoş guzəran, bolluq, firavanlıq, toy-bayramlı günlər arzulayırlar. Küsülülərin barışması və ya barışdırılması vacib məsələlərdən hesab edilir. Novruz şənlikləri, bayram günündən başlayaraq ən azı bir həftə, müxtəlif şənliklərlə, mərasimlərlə, oyun və əyləncələrlə davam edir. Uşaqlar, gənclər dəstə halında evbəev gəzir, Novruza həsr olunmuş nəğmələr oxuyur, dualar edir, bayrampayı alırlar. Bu mərasim "Novşud" adlanır. Keçmişdə Novşud dəstəsi kütləvi tamaşalar göstərməklə Novruz bayramının əsas aparıcı qüvvəsi rolunu oynayırdı. Novruz şənliklərindən tanıdığımız əsas obrazlar olan Dodo, Qıdi (Qodu), Kosa, Keçəl, Keçi, Gəlin, Bahar qızı, məhz Novşud dəstəsinin üzvləridirlər. Novşud dəstəsi son 60-70 il bundan əvvələdək Lerikdə, hətta qonşu kəndlərə gedib, nəğmələrini söyləyər, tamaşalar göstərər, məzhəkələr nümayiş edərdi. Təssüf ki, ilbəil Novşud nəğmələri unudulmaqdadır. Novşud dəstəsinin soylədiyi ən məhşur nəğmə:

**Bahar oməy, bahar oməy,**
**xəş oməy,**
**Vılonən bə tojə sori**
**xoş oməy.**

*(Bahar gəldi, bahar gəldi,*
*xoş gəldi, güllər də yeni ilə*
*xoş gəldi)*

Sözləri ilə başlanan nəğmədir ki, o bəzən, fars dilində də səsləndirilmişdir.

Araşdırmalarımızdan məlum olur ki, ən qədim dövrlərdə Lerikdə keçirilən Novruz tamaşalarında əsas aparıcı obraz və ya obrazları yüzilliklər ərzində dəyişiklərə məruz qalmışdır. Məlumdur ki, hər hansı bir xalq məzhəkəçisinin qeyri-adi, qəribə görkəmə malik olması tamaşanı bir az da təravətləndirir. Lerikdə, elə ətraf rayonlarda da Novruz tamaşalarının bizə məlum olan ən qədim obrazı "Dodo" adlandırılan komik bir qadın olmuşdur. O, deyib-gülən, hamını öz məzəli hərəkətləri ilə güldürməyi bacaran, hazırcavab, lazım gələrsə, situasiyadan asılı olaraq, bədahətən şeir "qoşa" bilən bir şəxs olmalı idi. Dodo rəngbərəng, müxtəlif cür parçalardan tikilmiş tuman-köynək geyinər, üstünü muncuq və digər bəzək əşyaları ilə bəzəyər, çiyninə xurcun və ya heybə salar, dəstənin mərkəzində durub, xor nəğmələr oxumaqla, məhz, Dodoya bayrampayı yığılardı. Dodo da elə yığdıqlarını qarşısına çıxan digər insanlara paylayardı.

Talışlarda "dodo" indi də əsasən böyük bacıya, anaya müraciət forması kimi işlədilir. Bu sözə "Avesta"da "dohdo" şəklində rast gəlirik.

Əgər Novruz şənlikləri üçün Dodo rolunu ifa edə biləcək bir qız, qadın tapılmazdısa, onda bir iri taxta çömçəni dodo formasında müqəvva kimi bəzəyib, bir nəfər onu yuxarı tutaraq, əldə oynadar, dodo kimi təqdim edərdi.

Qıdı isə gödək boylu, liliput adama deyilir. Folklorşunas E.Aslanov özünün "Eloba oyunu, xalq tamaşası" əsərində yazır ki, Novruz şənliklərində "Keçəl" obrazını ifa edən oyunçu adəti üzrə kiçikboy olardı. Baş rolda olan oyunçunun necə adlanmasından asılı olmayaraq, xalqın daha çox, asan əyləndirilməsi üçün onun komik, məzəli görkəmə malik olmasına önəm verilərdi.

Sonralar Kosa obrazı meydana gəldi. İndi biz "kosa" üzündə tük çıxmayana və yaxud, üzündə, saqqalında seyrək tük çıxana deyirik. Kosa Səfəri, Göygöz Kosanı yada salaq. Əslində isə, "kosa" sözünün hərfi mənası-qırxıq baş, yəni, keçəl deməkdir. E.Aslanov, yuxarıda adını göstərdiyimiz əsərində "Keçəl" obrazı haqqında yazır ki, o muğlarda olub, məzhəkə, kukla tamaşalarında iştirak edən əsas simadır. O, hazırcavab, diribaş, ilk baxışdan sadəlövh olur. Bu surəti ifa edən oyunçu adəti üzrə kiçikboy olar... başına qoyun qarnı və ya ağ keçədən papaq keçirilərdi. Görkəmli müğənni, aktyor H.Sarbski "Köhnə Bakı" əsərində Bakı şəhərində keçirilmiş Novruz tamaşaları ilə bağlı qeyd edir ki, bəzən Kosanın başına sələ keçirirlər. Əlbəttə, bu "Kosa"nın (Keçəlin) təbii keçəlliyi olmayanda həyata keçirilirdi. Yuxarıdakı fikirlərdən məlum olur ki, əslində Kosa elə Keçəldir. Bizə elə gəlir ki, bugünkü Novruz tamaşalarında gördüyümüz Keçi obrazı da öz kökünü Keçəl, və ya Kosadan, daha doğrusu, bu obrazlardan deyil, bu oxşar sözlərdən formalaşmış və müstəqil personaja çevrilmişdir.

**Son illərdə Novruz tamaşalarında gördüyümüz "Bahar qız" "qar qız"ın prototipi kimi gözə görünsə də, o, eləcə də, "Kosa-gəlin" tamaşasındakı "gəlin" obrazı qan yaddaşımızdakı Dodo obrazının bu şənliklərdə təcəssümüdür. "Kosa-gəlin" tamaşasının məhz Lerikdə yaranmasını folklorşunaslar təsdiqləyirlər.**

# OFƏYEMON



İradə Məlikova
iradamalikova@mail.ru.

*(əvvəlış navminnə numrədə)*

**15**
**Çe Xıdo de İbrami əhd**

1 Mıddəti bəpeştə çiyemonədə nozil bin Rəbbi ın sıxanon bə İbrami: "Ha İbrama, mətars. Azim ıştı ğalxən. Vey yol bəbe ıştı mıkofot". 2 İbrami votışe: "Bəmı çiç bədoş, ha Xıdovandə Rəbba? Çımı nime fərzənd, çımı kəy soyb bəbe ım Dəməşğıjə Eliezer". 3 İbrami dəvom kardışe bəştə sıxani: "Tı bəmı fərzənd nıdoy qorənə, çımı kəy nokə bəbe çımı varis". 4 Rəbbi ın sıxan nozil be bəy: "Əv nibəbe ıştı varis, ıştı ıştən peşto omə fərzəndı bəbe ıştı varis". 5 Rəbbi bekardışe əv bə benton, votışe: "Diyəkə bə osmoni, başmard, qirəm bıznoş aşmarde əyo bıə astovon". İjən votışe: "Ənə bəbe ıştı nəsıl". 6 İbrami imon kardışe bə Rəbbi, Rəbbi salehəti zınəşe ım bəy. 7 Rəbbi votışe bə İbrami: "Az Rəbbim ın zəmini bətı irsi ğəzinə doyro tıni Xaldeyıjon şəhr Uro beyəkə". 8 İbram parsəy: "Ha Xıdovandə Rəbb, çoknə bıznım çımı əy irsi ğəzinə səy"? 9 Rəbbi votışe bəy: "Biyə Bomı qıləy sesorə kələ, qıləy sesorə moə bız, qıləy sesorə ğoç, həmçinin qıləy tətur iyən qıləy kafte balə". 10 İbrami peqətışe obırnişe əvon həmməy, co kardışe bə dı poə, noşe har qılə poə çə iqlə navədə, əmma poə nıkardışe pərəndon. 11 Əşivoə pərəndon pərəyn oməyn çe cəmdəkon səpe, əncəx İbrami tojnişe əvon. 12 Həşi eşə vaxti bə İbrami oməy nığılə han İberdəmə eçıkəy çəy səpe dəhşət iyən pındə toyki. 13 Rəbbi votışe bə İbrami: "Yəğın bızın ki, ğərib bəbe ıştı nəsıl açinə zəminədə, nokəti bəkarde bə əyo bıə milləti iyən bəvon zılm kardə bəbe çosa sor. 14 Əncəx Az ıştən cəzo bədom bəçəvon nokəti kardə xəlği. Çımi bəpeştə əvon bebəşen çəyo de yolə əmloki. 15 Tı isə dırozə umr karde bəpeştə bəmardeş de sulhi bəşeş ıştə pəon tono. 16 İyo obəqarde ıştı çominə nəsıl, çumçıko hələ pur bıəni çe Emorıjon qıno piyolə". 17 Həşi eşə, toyki darşeədə duyəvul beşə qıləy tənu iyən ozavziyə qıləy ğonğə çiyeçiye dəvarde pıtıpoə bıə həyvonon arəo. 18 Ə ruji Rəbbi əhd bastışe de İbrami, votışe: "Az bəştı nəsıli doydəm ru Misiriku tosə yolə ru Fərati dıroz bıə ın zəminon - 19 Qenıjon, Qenizıjon, Qadmonıjon, 20 Xetıjon, Perizıjon, Emorıjon, Kənanıjon, Qirqaşıjon iyən Yevusıjon zəmini".

**16**
**Həcər iyən İsmoyl**

